Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi



# 2021-ci İLİN İLK 9 AYI: İQTİSADİ ARTIMIN BƏRPASI VƏ POST-KONFLİKT QURUCULUĞU

Oktyabr, 2021

**“BU GÜN AZƏRBAYCAN İQTİSADİYYATI PANDEMİYA BÖHRANINDAN SONRA DİRÇƏLİB. DOQQUZ AYIN RƏQƏMLƏRİ MÜSBƏTDİR.”**

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**



# MÜNDƏRİCAT


ÖN SÖZ: SON 30 İLİN – SON 9 AYI ........ 3

İQTİSADİ ARTIM ........ 9

DÖVLƏT BÜDCƏSİ ........ 21

MALİYYƏ-BANK SEKTORU ........ 24

XARİCİ SEKTOR ........ 33

SOSİAL SİYASƏT ........ 37

REYTİNQ ........ 46

# ÖN SÖZ: SON 30 İLİN – SON 9 AYI

Bu nəşri Sizlərə təqdim edəndə təkcə 2021-ci ilin ilk 9 ayı deyil, həm də müstəqilliyimizin bərpasının 30 ili tamam olur. Azərbaycanın müstəqilliyinin 30 ili ərzində milli iqtisadiyyatımızın keçdiyi mərhələləri belə təsnifləşdirmək mümkündür:

**Tənəzzül dövrü (1991-1994-cü illər)**: Dövlət müstəqilliyinin bərpasının ilk illərinə təsadüf edən bu dövr, Azərbaycanın müharibə şəraitində olması, Ermənistanın hərbi təcavüzü nəticəsində bir milyondan çox qaçqın və məcburi köçkünlərin problemlərilə üzləşməsi ilə birlikdə keçmiş İttifaq respublikaları arasında ticarət əlaqələrinin zəifləməsi, nəticədə sosial-iqtisadi vəziyyətin kəskin pisləşməsi ilə xarakterizə edilə bilər. Həmin dövrdə regional qeyri-sabitlik, iqtisadi idarəetmədə səriştəsizlik, mövcud iqtisadi institutların səmərəsizliyi Azərbaycanda iqtisadi böhranı dərinləşdirmişdir. Beynəlxalq Valyuta Fondunun hesabatlarına əsasən, bu dövrdə Azərbaycan iqtisadi potensialının 60 faizini itirmiş, mövcud istehsal infrastrukturu əhəmiyyətli şəkildə sıradan çıxarılmış, işsizliyin kəskin artımı fonunda hiperinflyasiya müşahidə edilmişdir. 1991-1994-cü illər ərzində Azərbaycanın real ÜDM-i ildə orta hesabla 17 faiz aşağı düşmüş, dövlət büdcəsinin maliyyələşməsi əsasən emissiya kanalları hesabına reallaşdırılmış, tədavülə buraxılan milli valyuta kəskin ucuzlaşmışdır.

**Dərin iqtisadi islahatlar, keçid və bərpa dövrü (1995-2003-cü illər)**: Ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonrakı bu dövr, ilk növbədə, ölkədə siyasi sabitliyin bərpası, bazar iqtisadiyyatına keçidi və səmərəli iqtisadi münasibətləri təmin edəcək strateji iqtisadi islahatların reallaşdırılması nəticəsində yüksək keyfiyyətli iqtisadi artım üçün zəmin formalaşdırılması ilə xarakterizə edilə bilər. Genişmiqyaslı torpaq islahatları, dövlət əmlakının özəlləşdirilməsi kimi mühüm islahatların reallaşdırılması bu dövrə təsadüf edir. Dövrün digər mühüm xüsusiyyətlərindən biri də Azərbaycanın yüksək sürətlə inkişafını təmin edən neft strategiyasının təməlinin məhz bu dövrdə qoyulmasıdır. 1994-cü ildə 13 şirkətdən ibarət beynəlxalq konsorsiumla Azəri-Çıraq-Günəşli neft yataqlarının işlən-məsinə dair ümummilli lider Heydər Əliyevin müəllifi olduğu və birbaşa təşəbbüskarlığı ilə imzalanmış "Əsrin Müqaviləsi"nin ilkin iqtisadi səmərəsi özünü göstərməyə başladı. Bu dövrdə iqtisadi artım təmin edilməklə itirilmiş potensial bərpa edilmiş, milli valyutanın və qiymətlərin sabitliyinə, işsizliyin əhəmiyyətli səviyyədə azaldılmasına nail olunmuşdur. Ölkənin strateji xarici valyuta ehtiyatları formalaşdırılmış, bank sisteminə etimad bərpa edilmiş, dövlət büdcəsinin dayanıqlı maliyyələşmə mənbələri təmin edilmişdir.

**İqtisadi inkişaf və tərəqqi dövrü (2004–2014-cü illər)**: Bu dövrdə reallaşdırılmış iqtisadi artım modeli Azərbaycan iqtisadiyyatını dünyanın ən sürətlə artan iqtisadiyyatlarından

birinə çevirmişdir. Əldə edilmiş neft gəlirlərinin bir hissəsinin aktiv şəkildə ölkə iqtisadiyyatına investisiya edilməsi nəticəsində Azərbaycan qısa müddətdə yüksək–orta gəlirli ölkəyə çevrilmiş, sosial–iqtisadi infrastruktur tamamilə yenilənmiş, qlobal rəqabət qabiliyyətinə görə dünyada 37-ci yerdə qərarlaşmışdır. Görülən tədbirlər və təbii sərvətlərin qiymətindəki artımlar ölkə iqtisadiyyatının sıçrayışlı inkişaf mərhələsinin əsasını qoymuş və 2004-2010-cu illər ərzində ÜDM ildə orta hesabla 16,9 faiz artmışdır. Neft-qaz istehsalının həcminin və qiymətinin artması neft sektoruna birbaşa xarici investisiya (BXİ) cəlb edilməsinə də öz töhfəsini vermişdir. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan boru kəmərinin rəsmi açılışı olmuş və Azərbaycan qlobal səviyyədə iqtisadi əlaqələri yaxşılaşdırmaqla, neft-qaz istehsalı və ticarətinin davamlılığını təmin etmişdir. Bu illər ərzində neft gəlirləri tikinti, xidmət, dövlət idarəetməsi, müdafiə və sosial təminat kimi bir sıra digər sektorların da inkişafına birbaşa yol açmaqla ölkəyə tərəqqi gətirmişdir. İqtisadi artım prosesinin mühüm mərhələsini uğurla reallaşdırmağa imkan verən artım modeli sayəsində iqtisadiyyat 3 dəfə böyümüşdür. Bu dövr ərzində ölkədə qiymətlərin sabitliyi qorunmuş, xarici valyuta gəlirlərinin əhəmiyyətli artması nəticəsində böyük həcmdə strateji valyuta ehtiyatları formalaşdırılmış, milli valyutanın məzənnəsinin izafi möhkəmlənməsinə yol verilməməklə beynəlxalq rəqabət qabiliyyəti qorunmuşdur. Dövr ərzində bank sektorunda aktivlik yüksəlmiş, əmanətlərin həcmi 11 dəfə, kreditlərin həcmi 19 dəfə artmışdır. Bu dövrdə diqqət edilməli məqamlardan biri də 2011-ci ildən sonra iqtisadi artım sürətinin aşağı düşməsidir. İqtisadiyyata dövr ərzində qoyulan investisiyaların artmasına baxmayaraq, iqtisadi aktivliyin zəifləməsi müşahidə edilmişdir. Aktiv şəkildə kapital yığımı modeli bu dövrdən sonra özünün "doyumluluq" səviyyəsinə çatmışdır.

**Aşağı neft qiymətləri dövrü (2014-2016)**: 2014-cü ilin sonlarından etibarən dünya əmtəə bazarlarında neftin qiymətinin kəskin ucuzlaşmasının və ticarət tərəfdaşlarında resesiyanın mənfi təsirləri 2015-ci ilin ikinci yarısından etibarən Azərbaycan iqtisadiyyatında müşahidə edilməyə başlamışdır. Mənfi təsir, ilk növbədə, tədiyə balansına, daha sonra iqtisadi artımın maliyyələşmə kanalları üzərindən iqtisadi aktivliyə ötürülmüşdür. ABŞ dollarının məzənnəsi milli valyutaya qarşı iki dəfəyə yaxın bahalaşmış, maliyyə sabitliyinin təmini üzrə bir sıra risklər formalaşmış, dövlət borcunun ödənilməsi üzrə fiskal yük artmışdır. Azərbaycan hökuməti iqtisadi aktivliyin bərpa edilməsi məqsədilə iqtisadi siyasətin daha da təkmilləşdirilməsi, institusional islahatların sürətləndirilməsi istiqamətində bir çox tədbirlər görmüşdür.

**Bərpa dövrü (2017-2020 mart)**: 2016-cı ildə Prezident İlham Əliyev strateji yol xəritələrini qəbul etmişdir. Azərbaycan

iqtisadiyyatı əvvəlcə xarici şokların mənfi təsiri nəticəsində yaranmış vəziyyətdən çıxaraq qısamüddətli dönəmdə sabitləşmiş, 2017-2018-ci illərdə bərpa dövrünü keçərək, 2019-2020-ci ilin martına qədərki müddətdə inkişaf fazasına qədəm qoymuşdu. Bu dövrdə Azərbaycan "Doing Business" hesabatına əsasən iki il dalbadal dünyanın ən islahatçı ölkələrinin sırasına daxil olaraq, 190 ölkənin arasında 25-ci yerə qədər irəliləməyi bacarmışdı. 2019-cu il inqilabi sosial islahatlarla bərabər, həm də dövlət idarəetmə islahatları və iqtisadi islahatlarla yadda qalmışdır. Lakin dövrün sonunda COVİD-19 pandemiyası iqtisadi inkişaf tsiklinin pik fazasına daxil olmağa imkan vermədi. Azərbaycan iqtisadiyyatı da dünya trendinə uyğun olaraq resesiyaya daxil oldu və 2020-ci ildə 4,3 faiz gerilədi.

**Böhran idarəetməsi dövrü (2020-ci ilin martından başlamışdır və 2021-ci ilin aprelində yekunlaşmışdır)**: Prezident İlham Əliyevin rəhbərliyilə Azərbaycan dövləti eyni vaxtda pandemiya, quraqlıq, aşağı neft qiymətləri və Ermənistanın hərbi təxribatına qarşı böhran idarəetməsi nümunəsi göstərdi. 2021-ci ilin ortalarına doğru resesiya dayandı və iqtisadi artım bərpa olundu. Azərbaycan pandemiya ilə mübarizə nəticələrinə, eyni zamanda vaksinləşmə siyasətinə görə öncül mövqe tutmaqla yanaşı, həm də qlobal səviyyədə töhfəsini verdi. 2020-ci ildə Azərbaycanda məcmu dövlət borcunun ÜDM-ə nisbəti dünya üzrə göstəricidən təxminən 4 dəfə az oldu. AYİB-in sorğularına əsasən orta gəlirli ölkələrin 30 faizi, aşağı gəlirli ölkələrin isə 50 faizində borc böhranı proqnozlaşdırılır. Azərbaycan qarşılaşdığı xarici şoklarla mübarizədə xarici deyil, öz resurslarına əsaslanmaqla borc dayanıqlılığını qoruya bildi. 2020-ci ildə dövlət büdcəsinin azalan gəlirləri və artan xərclərini tarazlaşdırılması üçün "fiskal fəza"dan istifadə etməklə büdcə dürüstləşdirilməsi çərçivəsində 2,3 milyard manatlıq əlavə maliyyə təminatı yaradıldı. Büdcə qaydasının tətbiqini müvəqqəti dayandırmaqla 2020-ci ildə yumşaq kontrsiklik büdcə siyasətinin həyata keçirilməsi böhranla mübarizədə effektiv oldu. 2020-ci ildə pul təklifinin artması və uçot dərəcəsinin azaldılması fonunda monetar siyasətin yumşaldılması fiskal genişlənmə siyasəti ilə əlaqələndirildi. Beləliklə, fiskal və monetar siyasətin əsas hədəfi makroiqtisadi sabitlik və iqtisadi aktivlik arasında balansın qorunması olub. Pandemiya əleyhinə mobilizasiya olunan 3,5 milyard manatlıq vəsait hesabına iqtisadi geriləmə yumşaldıldı, makroiqtisadi sabitlik qorundu, məşğulluğa dəstək verildi, sahibkarlara kömək olundu, sosial layihələr genişləndirildi, bank kreditləri restruktrizasiya edildi, zəmanət və subsidiyalar verildi. Bu dövrün, bütövlükdə Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə Ordumuzun ölkəmizin ərazi bütövlüyünü bərpa etməsi oldu. Beləliklə, Azərbaycan post-pandemiya və post-konflikt dövrünə qədəm qoydu.

# ÖN SÖZ: SON 30 İLİN – SON 9 AYI

**İqtisadi artımın bərpası dövrü (2021-ci ilin mayından başlamışdır)**. 2021-ci ilin mayından başlayaraq Azərbaycanda iqtisadi geriləmə dayanıb və artım tempi aybaay sürətlənir. 2021-ci ilin ilk 9 ayında Azərbaycanda ÜDM-in artım tempi 6,2 faiz böyüyən qeyri-neft sektorunun drayverliyilə 4,8 faiz qeydə alınmışdır. BVF Azərbaycan iqtisadiyyatının bu il 3 faiz artmasını proqnozlaşdırır ki, bu da əvvəlki proqnozları üstələyir və milli iqtisadiyyata güvənin artmasını göstərir. Lakin milli iqtisadiyyatın artım tempi həm BVF-nin, həm də Dünya Bankının proqnozlarını əhəmiyyətli şəkildə üstələyir. Artıq Azərbaycanda iqtisadi artım tempi "Dünya iqtisadi icmalı"nda Orta Şərq və Mərkəzi Asiya üçün proqnozlaşdırılan 4,1 faizlik həddi üstələyib. Bunun əsas səbəbi yüksək sənayeləşmə tempindədir. Azərbaycanda ÜDM istehsalının 40,1 faizi sənayenin payına düşür ki, bu da orta dünya göstərici 24,8 faizdən əhəmiyyətli üstündür. Müqayisə üçün deyək ki, sənayenin ÜDM-də payı Mərkəzi Avropa və Baltik ölkələrində 27,2 faiz, Avrozonada 21,5 faiz və OECD ölkələrində isə 21,1 faizdir. Azərbaycanda sənayenin strukturunda da qeyri-neft-qaz sektorunun xüsusi çəkisi daha sürətlə artır. Azərbaycan dördüncü sənaye inqilabının tələblərinə uyğun inkişaf edir.

Post-konflikt quruculuğu, həmçinin tədiyyə və icmal büdcə balanslarının profisiti şəraitində makroiqtisadi fundamentallar iqtisadi artımı stimullaşdırır. 2021-ci ilin ilk yarımilliyində tədiyə balansı əsasən qlobal əmtəə bazarlarında qiymətlərin bərpası və qeyri-neft ixracının genişlənməsindən təsirlənmişdir. Bu ilin ilk 6 ayında cari əməliyyatlar balansında 1,9 milyard ABŞ dolları profisit, kapital və maliyyənin hərəkəti hesabında isə 0,6 milyard ABŞ dolları kəsir yaranmış, ehtiyat aktivləri 1,3 milyard ABŞ dolları artmışdır. Bu dövrdə xam neftin orta qiyməti 58$/barel olmuşdur. BVF-nun proqnozlarına əsasən Azərbaycanın cari əməliyyatlar hesabının ÜDM-ə nisbəti 2021-ci ildə 7,8 faiz təşkil etməklə Orta Şərq və Mərkəzi Asiyanın eyniadlı göstəricisi – 1,7 faizdən əhəmiyyətli şəkildə üstün olacaqdır. Proqnozlara görə Azərbaycan cari əməliyyatlar hesabının ÜDM-ə nisbəti göstəricisinə görə 2021-ci ildə Orta Şərq və Mərkəzi Asiya bölgəsində ilk üçlükdə qərarlaşacaqdır.

2021-ci ilin ilk 9 ayında Azərbaycanda manat sabitliyini qoruyur və inflyasiya (artan idxal qiymətlərinin təzyiqlərinə rəğmən) hədəf dəhlizindədir. Böhran ilində requlyativ tətil, istehlakçı hüquqlarının qorunması, dijitallaşmaya keçidin sürətləndirilməsi, maliyyə inklüzivliyinin artırılması, onlayn xidmət kanallarının təşviqi, maliyyə intizamının qorunması, kredit ekspansiyasının təşviqi və maliyyə dayanıqlılığına dəstək tədbirləri həyata keçirildi. Monetar yumşalma xüsusi qeyd oluna bilsə də, kredit faizləri hələ də yüksək qiymətləndirilir. Bank sektorunda kapital adekvatlığı və likvidlik göstəriciləri normativdən artıqdır, bankların göstəriciləri yaxşılaşır. Monetar siyasətin qısamüddətli dönəmdə iqtisadi fəallığın və real

sektorun canlanmasına daha çox töhfəsi, həmçinin monetar transmissiya gücünün artması arzuolunandır.

2020-ci ildə 4,7 milyard manatlıq kəsirlə icra olunan icmal büdcədə 2021-ci ilin ilk 9 ayında profisit yaranmış, icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbəti əhəmiyyətli azalmışdır. İcmal büdcənin qeyri-neft baza kəsirində yaxşılaşma qeyri-neft gəlirlərinin artması və büdcə xərclərinin qənaətlə icra edilməsi hesabına baş vermişdir. Cari ilin doqquz ayında icmal büdcənin gəlirləri 23021,4 mln. manat olmuşdur ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 5531,5 mln. manat və ya 31,6 faiz çoxdur. İcmal büdcənin xərcləri isə 19458,3 mln. manat məbləğində icra olunmuşdur. 2021-ci il üzrə icmal büdcə 7335,3 mln. manat məbləğində kəsirlə proqnozlaşdırılsa da, cari ilin doqquz ayında faktiki olaraq 3563,1 mln. manat büdcə artıqlığı (profisit) yaranmışdır. Dövlət büdcəsinin hesabına həyata keçirilən genişmiqyaslı sosial proqramlar post-konflikt və pandemiya dövründə çağırışları qarşılamaq nöqteyi-nəzərindən əhəmiyyətlidir. Operativ məlumata əsasən 2021-ci ilin doqquz ayında dövlət büdcəsinin gəlirləri və maliyyələşdirmə əməliyyatları üzrə daxilolmaları 18947,9 mln. manat təşkil etməklə, 17711,9 mln. manat xərclərindən 1236,0 mln. manat artıq olmuşdur.

Azərbaycan post-neft dövrünə hazırlaşsa da, hazırda enerji bazarlarında yaşanan problemlərin fonunda neft-qaz ixracatçısı statusunu inamla qoruyur və ciddi təhdidlərlə üzləşmiş Avropanın enerji təhlükəsizliyində rolunu gücləndirir. Dünyada təchizat zəncirlərində yaşanan problemlərn fonunda Azərbaycanın Şərq-Qərb dəhlizinin üzərində yeni bir arteriyanın – “Zəngəzur dəhlizi”ni gerçəkləşdirməsi təkcə ölkəmizin deyil, regionun iqtisadi artım potensialına töhfə verə bilər.

2021-ci ildə Azərbaycanda aparılan islahatlar, o cümlədən, yeni iqtisadi rayonlaşma, struktur islahatları, dövlət müəssisələrində korporativ standartların tətbiqi və biznes mühitinin təkmilləşdirilməsi iqtisadi səmərəliliyin artırılmasına hədəflənib. Bu il Azərbaycan “Doing Business” hesabatında 34-cü yerdən 28-ci yerə, “İqtisadi azadlıq indeksi” hesabatında 44-cü yerdən 38-ci yerə və “Qlobal kibertəhlükəsizlik” hesabatında 55-ci yerdən 40-cı yerə yüksəlib. BVF-nun missiyası hesab edir ki, Azərbaycan hökuməti cəld hərəkətə keçərək, xarici şokların təsirini yumşaldıb. Bundan sonra iqtisadi siyasətin hədəfi özəl sektorun inkişafı, biznes mühitinin daha da yaxşılaşması, idarəetmə və şəffaflıq sahəsində islahatların davam etdirilməsi, həmçinin maliyyəyə çıxışın yaxşılaşması hesabına iqtisadi şaxələnmənin dərinləşməsi və iqtisadiyyatın şoklara dayanıqlılığının yüksəldilməsi olmalıdır.

# ÖN SÖZ: SON 30 İLİN – SON 9 AYI
## MÜSTƏQİLLİK İLLƏRİNDƏ MİLLİ İQTİSADİYYATIMIZIN MƏRHƏLƏLƏRİ




**TƏNƏZZÜL DÖVRÜ (1991-1994)**

- Qeyri-sabitlik
- Yüksək inflyasiya
- İşsizlik
- Ərazilərimizin işğalı

**DƏRİN İQTİSADİ İSLAHATLAR, KEÇİD VƏ BƏRPA DÖVRÜ (1995-2003)**

- Siyasi sabitlik
- Dövlət quruculuğu
- Makroiqtisadi sabitlik
- Uğurlu neft strategiyası

**İQTİSADİ İNKİŞAF VƏ TƏRƏQQİ DÖVRÜ (2004-2014)**

- Sıçrayışlı iqtisadi artım
- Yüksək-orta gəlirli ölkə
- Müasir infrastruktur
- Makroiqtisadi sabitlik

**AŞAĞI NEFT QİYMƏTLƏRİ DÖVRÜ (2015-2016)**

- Artım sürətinin səngiməsi
- Aşağı neft qiyməti
- Devalvasiya
- Xarici şoklar

**BƏRPA DÖVRÜ (2017-2020 mart)**

- Strateji Yol Xəritələrinin qəbulu
- Xarici şokların minimallaşdırılması
- Artım sürətinin bərpası
- İqtisadi, sosial və dövlət idarəetməsində islahatlar
- "Doing Business"də islahatçı top 10 ölkədən biri

**BÖHRAN İDARƏETMƏSİ DÖVRÜ (2020 mart - 2021 aprel)**

- Pandemiya
- Vətən müharibəsi
- Aşağı neft qiymətləri
- Resesiya
- Vaksinləşmə

**POST-KOVİD VƏ POST-KONFLİKT QURUCULUQ DÖVRÜ (2021 apreldən sonra)**

- Böyük qayıdış
- İqtisadiyyatın şaxələnməsi
- Yaşıl artım
- İqtisadi artımın bərpası

1

# İQTİSADİ ARTIM

# 2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA ÜMUMİ DAXİLİ MƏHSUL İSTEHSAL MİLYON MANATLA (2020-Cİ İLİN EYNİ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ)

*Faktiki qiymətlərlə

■ 2021-ci il
■ 2020-ci il

| | Dəyişmə | 2021-ci il | 2020-ci il |
|---|---|---|---|
| ÜDM istehsalı | +4,8% | 62 877,4 | 52 074 |
| Qeyri neft-qaz ÜDM | +6,2% | 40 204,7 | 36 319,6 |
| *Sənaye məhsulu | +4,5% | 36 558,3 | 27 416,9 |
| *Qeyri neft-qaz sənayesi | +19,6% | 10 804,5 | 8 819,6 |

# 2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA KƏND TƏSƏRRÜFATI MƏHSULU
(2020-Cİ İLİN EYNİ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ)

Qeyd: faktiki qiymətlərlə

■ kənd təsərrüfatı məhsulu ■ bitkiçilik ■ heyvandarlıq

**7 342,1 mln AZN**

**3 989,4 mln AZN**



**3 352,7 mln AZN**

## Kənd təsərrüfatı məhsulu




2020 2021

## Bitkiçilik




2020 2021

## Heyvandarlıq




2020 2021

# 2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA NƏQLİYYAT SEKTORU
(2020-Cİ İLİN EYNİ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ)

## Nəqliyyat sektorunda yük daşınması

**140,3 mln ton**

**- 0,2%**

2020 2021

## Nəqliyyat sektorunda sərnişin daşınması

**838,9 mln sərnişin**

**- 10%**

2020 2021



# 2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA İNFORMASİYA VƏ RABİTƏ XİDMƏTLƏRİ
(2020-Cİ İLİN EYNİ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ)

Qeyd: faktiki qiymətlərlə

## İnformasiya və rabitə xidmətləri




**1 602,3 mln AZN**        **1 699,3 mln AZN**

■ 2020-ci il

■ 2021-ci il



# 2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA ƏRZİNDƏ PƏRAKƏNDƏ TİCARƏT DÖVRİYYƏSİ
(2020-Cİ İLİN EYNİ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ)

Qeyd: faktiki qiymətlərlə

## Pərakəndə ticarət dövriyyəsi

- 2020-ci il
- 2021-ci il




**28 054,9 mln AZN**

**30 350,1 mln AZN**



# 2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA ƏHALİYƏ GÖSTƏRİLƏN ÖDƏNİŞLİ XİDMƏTLƏR
## (2020-Cİ İLİN EYNİ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ)

Qeyd: faktiki qiymətlərlə

### Əhaliyə göstərilən ödənişli xidmətlər

+ 4,6%

■ 2020-ci il

■ 2021-ci il



**4 937,0 mln AZN**



**5 402,7 mln AZN**



# 2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA İSTEHLAK BAZARI ÜZRƏ ƏSAS GÖSTƏRİCİLƏR
(2020-Cİ İLİN EYNİ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ)

Qeyd: faktiki qiymətlərlə

## İstehlak bazarında satılmış məhsulların və göstərilmiş xidmətlərin ümumi dəyəri



# 2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA İCTİMAİ İAŞƏ XİDMƏTLƏRİ
## (2020-Cİ İLİN EYNİ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ)

Qeyd: faktiki qiymətlərlə

### İctimai iaşə xidmətləri



# 2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA TİKİNTİ SEKTORUNDA ÜDM
(2020-Cİ İLİN EYNİ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ)



Qeyd: faktiki qiymətlərlə

## Tikinti sektoru

**- 3,7%**



**3 339,0 mln AZN** **3 270,1 mln AZN**

■ 2020-ci il

■ 2021-ci il

## **YENİ YARADILMIŞ VƏ LƏĞV EDİLMİŞ STATİSTİK VAHİDLƏRİN** (FƏRDİ SAHİBKARLAR İSTİSNA OLMAQLA) **SAYI**



# SENAYENİN ÜDM-DƏ PAYI




Mənbə: Dünya Bankı (2020)

2

# DÖVLƏT BÜDCƏSİ

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2021=Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA DÖVLƏT BÜDCƏSİNİN GÖSTƏRİCİLƏRİ
(MLN MANAT)




Mənbə: Maliyyə Nazirliyi

## VERGİ DAXİOLMALARI, MİLYON MANAT
((2020-Cİ İLİN EYNİ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ)



# 3 MALİYYƏ-BANK SEKTORU

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# DEPOZİTLƏR
(MLN MANAT)




Mənbə: Azərbaycan Mərkəzi Bankı

# KREDİT QOYULUŞLARI
(MLN MANAT)




Mənbə: Azərbaycan Mərkəzi Bankı

# İNFLYASİYA
(ORTA İLLİK FAİZ)




Mənbə: Azərbaycan Mərkəzi Bankı

# PUL BAZASI
(DÖVRÜN SONUNA), MLN MANAT




Mənbə: Azərbaycan Mərkəzi Bankı

# MANATIN NOMİNAL MƏZƏNNƏSİ (%)




Mənbə: Azərbaycan Mərkəzi Bankı

# MANATIN REAL EFFEKTİV MƏZƏNNƏSİ (%)




Mənbə: Azərbaycan Mərkəzi Bankı

# BANK SEKTORUNUN İCMALI
(MLN MANATLA)




Mənbə: Azərbaycan Mərkəzi Bankı

# ƏSAS KAPİTALA YÖNƏLDİLMİŞ VƏSAİTLƏR
(MİLYON MANAT)




Mənbə: Dövlət Statistika Komitəsi

# 5 XARİCİ SEKTOR

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# 2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA XARİCİ TİCARƏT DÖVRİYYƏSİ
(2020-Cİ İLİN EYNİ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ, MİLYON ABŞ DOLLARI İLƏ)

**Xarici ticarət dövriyyəsi**
+24,8%
22974,3
18405,3

**İdxal**
+38,3%
8344,5
7824

**Saldo**
+6,7%
6285,3
2757,3

**İxrac**
+2,3 dəfə
14629,8
10581,3

Qeyd: Dövlət Gömrük Komitəsinin məlumatları



■ 2021-ci il
■ 2020-ci il

# 2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA QEYRİ-NEFT İXRACI
(2020-Cİ İLİN EYNİ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ, MİLYON ABŞ DOLLARI İLƏ)




**Qeyri-neft sektoru üzrə**

+40,9%

| | 2021-ci il | 2020-ci il |
|---|---|---|
| Qeyri-neft sektoru üzrə | 1809,1 | 1283,8 |

# 2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA AZƏRBAYCAN GƏLƏN ƏCİNƏBİLƏR, NƏFƏR
(2020-Cİ İLİN EYNİ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ)

■ 2020
■ 2021

**Yanvar-sentyabr**

**- 25%**

| 2020 | 2021 |
|---|---|
| 686 303 | 515 280 |

**Sentyabr**

**+ 99%**

| 2020 | 2021 |
|---|---|
| 36 531 | 72 686 |

## Sentyabr ayında ən çox əcinəbinin gəldiyi 5 ölkə

| Ölkə | Nəfər |
|---|---|
| Türkiyə | 20 186 |
| Rusiya | 18 967 |
| İran | 16 270 |
| Gürcüstan | 5 503 |
| Ukrayna | 1 270 |



# 6 SOSİAL SİYASƏT

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# 2021-Cİ İLİN 9 AYI ÜZRƏ PREZİDENT TƏQAÜDLƏRİ VƏ SOSİAL MÜAVİNƏTLƏR
(NAXÇIVAN MR İSTİSNA OLMAQLA)

## Prezident təqaüdləri ödənilmişdir

**285 min**



## Sosial müavinətlər ödənmişdir

**441,3 min**

**379,3 min**



**62 min**

■ aylıq ■ birdəfəlik

Mənbə: Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi



# 2021-Cİ İLİN 9 AYI ÜZRƏ MƏNZİL VƏ AVTOMOBİL TƏMİNATI

**2021-ci ilin planı**

**3 000**

**1600**



■ şəhid ailələri və müharibə əlillərinə mənzil verilib

**2021-ci ilin planı**

**160**

**144**



■ müharibə əlillərinə avtomobil verilib

Mənbə: Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi



# 2021-Cİ İLİN 9 AYI ÜZRƏ MƏŞĞULLUQLA BAĞLI TƏDBİRLƏR

## İşsizlikdən Sığorta Fondunun gəlirləri və xərcləri




**113,3 mln AZN** **86,2 mln AZN**

## Münasib işlə təmin olunanlar

**62,7 min nəfər**

**23,3 min nəfər**



■ ictimai işlə təmin olunanlar

## İşsizlikdən sığorta ödənişi təyin edilənlər

**2 659 nəfər**



## İşsizlikdən sığorta ödənişinin orta aylıq məbləği



**342,9 AZN**

Mənbə: Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

## 2021-Cİ İLİN 9 AYI ÜZRƏ ÖZÜNÜMƏŞĞULLUQ PROQRAMINA CƏLB EDİLƏNLƏR




Mənbə: Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

## Pensiyçıların sayı

**1 205 346**
(01.10.2021-ci il tarixində proqnoz)

**709,9 min**



**142,6 min**

**352,9 min**

- yaşa görə
- əlilliyə görə
- ailə başçısını itirməyə görə

Mənbə: Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

# 2021-Cİ İLİN 9 AYI ÜZRƏ PENSİYANIN ORTA AYLIQ MƏBLƏĞİ
(2020-Cİ İLİN MÜVAFİQ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ)

**Bütün növ pensiyalar üzrə**

**329 AZN**




**Yaşa görə pensiya üzrə**

**358 AZN**




Mənbə: Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

# 2021-Cİ İLİN 9 AYI ÜZRƏ ÜNVANLI DÖVLƏT SOSİAL YARDIMI
(NAXÇIAVAN MR İSTİSNA OLMAQLA)

**Ünvanlı dövlət sosial yardımı ödənmişdir**

**52 min ailə**



**Ailəyə düşən orta aylıq məbləğ**

**267 AZN**




Mənbə: Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

# 2021-Cİ İLİN 9 AYI ÜZRƏ ƏLİLLİKLƏ BAĞLI TƏDBİRLƏR

**Əlillik təyin edilib**
**40 460**

**İlkin əlillik təyin edilib**
**12 823**

**Təkrar əlillik təyin edilib**
**27 637**

x 2 dəfə

x 1,2 dəfə

x 2,9 dəfə



■ 2020 ■ 2021

Mənbə: Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

4

# REYTİNQ

# “HERITAGE FONDU” TƏRƏFİNDƏN HAZIRLANAN “İQTİSADİ AZADLIQ İNDEKSİ 2021” HESABATINDA AZƏRBAYCAN 172 ÖLKƏ ARASINDA 38-Cİ YERDƏ QƏRARLAŞIB




2020-ci il üzrə mövqe

2021-ci ildə mövqe

Mənbə: https://www.heritage.org/index/ranking?version=444

# ƏN NÜFUZLU HƏRBİ HESABAT HESAB OLUNAN “QLOBAL ATƏŞ GÜCÜ 2021” HESABATINA ƏSASƏN AZƏRBAYCAN 2021-Cİ İLDƏ ÖZ HƏRBİ QÜDRƏTİNİ QORUYUB SAXLAMIŞDIR

## Azərbaycan öz hərbi gücünə görə qlobal miqyasda 63-cü mövqedə qərarlaşmışdır.




**Azərbaycanın mövqeyi**






**Gürcüstanın mövqeyi**






**Ermənistanın mövqeyi**



Mənbə: https://www.globalfirepower.com/

# 2021-Cİ İLDƏ AÇIQLANMIŞ BEYNƏLXALQ TELEKOMMUNİKASİYA İTTİFAQININ "QLOBAL KİBER-TƏHLÜKƏSİZLİK İNDEKSİ 2020" ÜZRƏ AZƏRBAYCAN 15 PİLLƏ İRƏLİLƏYİB




Mənbə: https://www.itu.int/dms_pub/itu-d/opb/str/D-STR-GCI.01-2021-PDF-E.pdf

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

http://ereforms.gov.az

/iqtisadiislahat